Ədəbiyyat qəzeti
22 may / 2021



Çingiz ABDULLAYEV

# Yaşının bu çağında da

Sabir Rüstəmxanlı Azərbaycanın Xalq şairidir. Xalq şairi fəxri adı poeziyada qazanılan nailiyyətlərə və ədəbiyyat sahəsindəki xidmətlərə görə verilir. Sabir Rüstəmxanlı doxsanıncı illərin əvvəllərində Azərbaycanda azad dövri mətbuatın təməlini qoyan məşhur siyasi xadim və publisistdir. O, İsmayıl Şıxlı, Bəxtiyar Vahabzadə, Yusif Səmədoğlu, Xəlil Rza və başqa şair və yazıçılarla birgə Qarabağın azadlığı, ölkəmizin ərazi bütövlüyü uğrunda xalq hərəkatına başçılıq edən yazarlardan biridir. Repressiya və təqiblərdən qorxmayan gənc şair Sovet İttifaqına meydan oxuyurdu. Onun milli qürur və özünüdərk yolunda təkcə yazı masasında yox, meydanlarda, azadlıq hərəkatında göstərdiyi cəsarət də yaddaşlarda, yaxın tariximizin qızıl səhifələrində əbədiləşib.

Sabir Rüstəmxanlı Mətbuat və İnformasiya naziri işləyən zaman öz prinsiplərinə xəyanət etmədi, lovğalanmadı, öz keçmiş həmkarlarından ayrılmadı. Demək olar ki, onunla eyni vaxtda başqa bir komitənin sədri təyin olunan şair isə özünün keçmiş həmkarları ilə olan bütün əlaqələrini nümayişkaranə şəkildə kəsdi. Sabir vəzifədə olan zaman bu sınaqlardan ləyaqətlə çıxdı. O, uzun illər deputatlıq fəaliyyətində öz prinsiplərinə sadiq qalaraq haqqı müdafiə edir.

Sabir Rüstəmxanlı Beynəlxalq forumlarda da ölkəmizin haqq işi, müdafiəsi uğrunda çıxışlar edur. Onun qələmə aldığı "Ömür yolu" kitabı müəllifin dünyagörüşünü ifadə edir. Bu əsər Azərbaycan xalqının milli duyğularının oyanmasında ciddi rol oynayıb, milli-azadlıq hərəkatının mənəvi təməllərindən biri olub. Bu kitabda qələmə alınanlar öz millətinə, öz xalqına, öz torpağına, öz vətəninə, öz doğma dilinə vurğun insanın düşüncələridir.

Yaşının bu çağına baxmayaraq o, yaradıcılıq enerjisi və gücü ilə zəngindir. Mən inanıram ki, biz yenə də Sabirin yeni şeirlərindən, kitablarından zövq alacağıq, ölkəmizin haqq işində, müdafiəsində onun səsini eşidəcəyik. Yaşının bu çağında insanların xasiyyəti dəyişmir. Əlbəttə, o da dəyişilməyəcək, öz ideallarına sadiq qalacaq.

Sabir Rüstəmxanlını 75 illiyi münasibətilə təbrik edirəm, ona uzun ömür, cansağlığı, yaradıcılıq uğurları arzulayıram.